MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 746**
**ORCID: 0009-0009-7941-396X**
**https://doi.org/10.52094/AWXS3186**

**Könül Gəncmalıyeva Nurməhəmməd qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**doktorant**
**konul.gencmaliyeva@gmail.com**

# DİNİ MƏRASİM ƏŞYALARININ BƏDİİ-DEKORATİV XÜSUSİYYƏTİ

**Xülasə.** Məqalədə müxtəlif dövrlərdə hazırlanmış dini təyinatlı mərasim əşyalarının – gülabdan, şərbətxor, tuğ başı, təbərzin və ələm nümunələrinin bədii-dekorativ xüsusiyyətləri sistemli şəkildə təhlil edilir. Bədii nümunələrin hər biri fərqli materiallardan – mis, şüşə, çini, tirmə, çit, məxmər və dəmirdən hazırlanmışdır və bu materiallar öz təbii xüsusiyyətlərinə uyğun işlənərək həm dekorativ, həm funksional məqsədlərə xidmət etmişdir. Təhlillər göstərir ki, dini təyinatlı əşyalarda forma daima rəmzi məna daşıyır. Məsələn, gülabdanların zərif və yüksələn gövdə quruluşu, ələmlərin əl formasında verilməsi dini düşüncənin bədii ifadə üsullarından biridir.

Dekorativ sistemdə əsas yeri nəbati ornamentlər, medalyonlu kompozisiyalar, oyma yazılar, güləbətin tikmə və mürəkkəb həndəsi bölgülər təşkil edir. Bu ornamentlərin yalnız bədii deyil, həm də semantik funksiyası var: Quran ayələri, Əhli-beytin adları və digər dini ifadələr əşyanın məzmununu müəyyənləşdirir və onu sadə məmulatdan çıxarıb dini ənənənin daşıyıcısına çevirir. Metod baxımından bu nümunələrdə forma və dekor arasında daima tarazlıq gözlənmişdir. Bəzi əşyalarda dekor zəngin, bəzilərində isə forma əsas ifadə vasitəsidir. Şərbətxorlarda monumental forma və sadə səthlər, bayraq başlarında konstruktiv həllin ön plana çıxması bu müxtəlifliyin nümunələridir.

Ümumilikdə, araşdırılan əşyalar göstərir ki, İslam dünyasında dini məmulatların hazırlanması yalnız məişət ehtiyacının deyil, sənətkarlıq ənənələrinin də formalaşdırdığı çoxqatlı proses olmuşdur. Forma, material və dekor arasında aydın münasibət qurulmuş, estetik bütövlük dini məzmunla vəhdət təşkil etmişdir. Bu nümunələr dini atributların sənət dili ilə necə yüksək

səviyyədə ifadə edildiyini təsdiqləyərək, tarixi sənətkarlığın mühüm mərhələlərindən xəbər verir.

**Açar sözlər:** din, mərasim, əşya, gülabdan, şərbətxor, təbərzin, ələm, bədii-dekorativ xüsusiyyət

**Giriş.** Dekorativ-tətbiqi sənətdə dini təyinatı, həm də bədii-dekorativ dəyəri ilə seçilən dini inanc və mərasimlə bağlı əşyalar yalnız dini ritualların vasitəsi deyil, eyni zamanda İslam estetikasının, ornamentikasının və incəsənətinin inkişafını ifadə edən zəngin sənət nümunələridir. VIII əsrdən başlayaraq geniş coğrafiyaya yayılan İslam mədəniyyəti memarlıq, dekorativ-tətbiqi sənət, epiqrafika, metal və ağac oymaçılığı, keramika və toxuculuq kimi sahələrdə dini məzmunlu çoxsaylı artefaktların yaranmasına şərait yaratmışdır.

Dini mərasim əşyalarının formalaşmasında Qurani-Kərim ayələri, hədis ədəbiyyatı, zəngin dini-simvolik sistem və İslam estetikasının əsas prinsipləri – sadəlik, ahəng, ritmik təkrar, təmiz xətt quruluşu və rəmzi məna dərinliyi mühüm rol oynayır. Bu baxımdan təsbehlər, gülabdanlar, kəşküllər, şərbətxorlar, təbərzinlər, ələmlər, zəncirlər, dini mətnli xalçalar, eləcə də məscid interyerinə aid minbər, rəhillər İslam dünyasında yüksək bədii-estetik ənənəni təmsil edir.

**Əsas hissə.** Dini təyinatlı əşyaların hazırlanması sırf funksional təyinatı aşaraq sənət düşüncəsinə çevrilmişdir. Bu əşyaların ornamentikasında əsasən nəbati motivlər (islimi, xətli bənd, palmet, rumi, ləçəkvari elementlər), həndəsi quruluş (girih, səkkizguşəli ulduz, çoxbucaqlı sistemlər) və epiqrafik kompozisiyalar üstünlük təşkil edir. Ayə və dua mətnlərinin kufi, nəsx, süls, təliq və digər xətt növləri ilə işlənməsi dini məzmunla bədii ifadə arasında harmonik əlaqə yaradır. Material baxımından isə metal (mis, tunc, gümüş), taxta, keramika, şüşə, parça və yarıqiymətli daşlar ən çox istifadə olunan vasitələrdir.

Azərbaycanın İslam dövrü bədii nümunələr irsində dini inanc və mərasimlə bağlı əşyalar xüsusi yer tutur. Məscid minbərlərinin oyma texnikası, ziyarətgahlarda istifadə olunan qəndil və şamdanların dekorativ həlli, yazılı saxsı qablar, dualı bəzək qutuları və toxuculuq nümunələri islam incəsənətinin regional təzahürlərini formalaşdırmışdır.

Dini əşyaların bədii-dekorativ xüsusiyyətlərinin öyrənilməsi islam mədəniyyətinin semiotik sistemi, ornamentoloji ənənəsi ilə bağlı daha geniş tədqiqat imkanları açır. Hər bir nümunə dini düşüncənin estetik təcəssümü olaraq həm ayinlə bağlı funksiyanı, həm də estetik bütövlüyü qoruyur. Bu baxımdan

artefaktların forması, dekorativ sistemi, xətt ornamentikası, ritm və kompozisiya quruluşu islam incəsənətinin dünyagörüşünə uyğun şəkildə formalaşmışdır.

Azərbaycanda dini mərasimlə bağlı əşyalar içərisində gülabdanlar xüsusilə seçilir. Qeyd edək ki, gülabdan nümunələri materialın işlənməsi, forma quruluşu, dekorativ elementlərin tətbiqi və texniki xüsusiyyətləri baxımından bir-birindən fərqli sənətkarlıq ənənələrini təcəssüm etdirir. XIX-XX əsrlər çərçivəsində formalaşmış bu əşyalar İslam mədəniyyətində həm gündəlik, həm də mərasim xarakterli istifadəyə malik olmuş, buna uyğun olaraq həm funksional, həm də bədii-estetik dəyərlər qazanmışdır.

Tədqiqata cəlb olunan gülabdanlar içərisində şüşədən hazırlanmış XIX əsrə aid gülabdan nümunəsi relyef effekti yaradan qabarıq gül ornamentləri və zərli işləmələri ilə diqqət çəkir. Qabarıq texnikası səthin plastika hissini artırır, işıq altında dəyişən parıltı və kölgə münasibətləri yaradır ki, bu da əşyanın dekorativ dəyərini yüksəldir. Ornamentin çiçək motivi üzərində qurulması onun həm estetik, həm də simvolik təsirini gücləndirir. Gövdə ilə boyun arasındakı keçid yumşaq və ahəngdar həll olunmuş, altlığın yastı – dairəvi quruluşu isə əşyanın sabitliyini təmin etmişdir. Metal başlığın seçilməsi təkcə konstruktiv deyil, həm də bədii məqsədə xidmət edir. Metal səth şüşənin parlaq xarakterini tamamlayır, iki fərqli materialın bir araya gəlməsi isə kompozisiyaya çoxqatlılıq gətirir.

Digər bir şüşə gülabdan dekorun mərkəzə yönəldiyi kompozisiya prinsipi ilə seçilir. Səthin ortasında yerləşdirilmiş ağ medal-yon bütün bəzək sisteminin əsas vizual mərkəzinə çevrilmiş, gül təsviri isə bu medal-yonun daxilində daha incə işlənmişdir. Medalyonun ağ fonu çiçək motivinin rəng ayrımını gücləndirir, konturların aydın görünməsini təmin edir və eyni zamanda səthin bütövlüyünü qoruyur. Gövdənin aşağı hissədən yuxarıya doğru incələn xətti, üst hissədə ucalan konusvari forma və altlığın nisbətən yığcam konstruksiyası əşyanın yüngül, şaquli ritm üzərində qurulan siluetini əmələ gətirir. Bu şüşə gülabdan dekorativ elementlərin daha nəzakətli və tarazlaşdırılmış şəkildə tətbiq olunduğu XIX əsr sənətkarlıq estetikasını təcəssüm etdirir.

Çinidən hazırlanmış mavi gülabdan material texnologiyasına görə əvvəlkilərdən ciddi şəkildə fərqlənir. Çini səthin hamar, qeyri-şəffaf strukturu rəngin stabil və parlaq qalmasına şərait yaradır. Mərkəzdəki ağ medalyon içərisində verilmiş çiçək təsviri incə fırça işinin nümunəsi olub daha çox miniatür estetikasına yaxın tərtibə malikdir. Mavi fon daşıdığı klassik Şərq çini

ənənəsinin davamıdır və bu fon üzərində açıq tonlu dekorun xüsusi seçilməsi dekorativ kontrast yaradır. Qulplu formanın seçilməsi əşyanı həm gülabdan, həm də çaydanvari forma tipologiyasına yaxınlaşdırır, lakin boyunun uzadılmış və incə quruluşu onu funksional olaraq gülabdan kimi müəyyən edir. Alt hissəsindəki "М.С.Кузнецовъ" istehsal möhürü əşyanın sənaye üsulu ilə hazırlanmasına baxmayaraq bədii tərtibatın yüksək səviyyədə qorunduğunu göstərir. Bu nümunə XX əsrin əvvəllərində sənaye istehsalı ilə dekorativ-tətbiqi sənətin sintezini aydın şəkildə təcəssüm etdirir.

Təhlil olunan gülabdan nümunələri tətbiqi sənətin müxtəlif texniki və estetik istiqamətlərini nümayiş etdirir. Relyefli ornamentli şüşə, medal-yonlu kompozisiya, çini üzərində incə miniatür tərtibi və sadə forma estetikası arasında yaranan müxtəliflik onların bədii-dekorativ dəyərinin geniş spektrini göstərir. Bu gülabdanlar dini mərasim və məişət mədəniyyətində gül suyunun saxlanılması və istifadə olunması ilə bağlı ənənənin zəngin sənətkarlıq dəyərləri ilə müşayiət edildiyini də təsdiqləyir. Formanın, materialın və dekorun bir-biri ilə əlaqəsində yaranan üslubi fərqlər həm dövrün estetik zövqünü, həm də sənətkarların fərdi ifadə xüsusiyyətlərini əks etdirir.

Dini mərasim əşyaları içərisində özünəməxsus bədii-dekorativ xüsusiyyəti ilə seçilən əşyalardan biri də şərbətxorlardır. XIX əsrə aid şərbətxor nümunələri metal emalı, forma həlli və ornamentika baxımından müxtəlif ustalıq mərhələlərini əks etdirir. Bu əşyalar həm məişət, həm də mərasim süfrələrində istifadə edildiyi üçün onların hazırlanmasında forma nisbətlərinin, səth bəzəyinin və materialın texniki işlənməsinin xüsusi əhəmiyyəti olmuşdur.

Bu dövrə məxsus mis şərbətxor formaca geniş ağızlı, konusvari gövdədən altlığa doğru yüngülcə enən quruluşu ilə seçilir. Səthin relyefsiz saxlanılması, yalnız təbii oksidləşmə nəticəsində yaranmış ton dəyişmələrinin görünməsi onun sadə, lakin monumental təsirini gücləndirir. Bu nümunədə əsas estetik yük formanın quruluşu və metal səthin yumşaq parıltısı üzərində qurulmuşdur. Gövdənin aşağı hissələrində müşahidə olunan yüngül dairəvi izlər döymə texnikası ilə formalaşdıran ustanın izlərini göstərir. Mis materialın seçilməsi həm suyu sərin saxlaması, həm də səthin işıqla ahəngdar münasibət yaratması baxımından məqsədəuyğundur. Səthdə ərəb əlifbası ilə sahibinin adının yazılması əşyanın fərdi sifariş məhsulu olduğunu göstərir.

XIX əsrə aid şərbətxor içərisində daha iri ölçülü olanları da vardır. Hündürlüyü 60 sm-ə yaxın olduğu üçün bu tip şərbətxorların daha çox toplu

mərasim süfrələrində istifadə edildiyi ehtimal edilir. Hündür ayaqlıq üzərində qurulan bu nümunələr proporsiyalar baxımından şaquli ritmin üstünlük təşkil etdiyi kompozisiyaya malikdir. Gövdənin yuxarı hissəsinin çanaqvari genişlənməsi və aşağıya doğru daralması funksional baxımdan içkinin süzülməsini asanlaşdırır, estetik baxımdan isə ağır materialın yüngül görünməsinə səbəb olur. Səthin tamamilə hamar saxlanılması və bəzəksiz buraxılması metalın təbii tonlarının dekorativ element kimi qəbul edilməsinə imkan verir. Bu şərbətxorların hər biri misin döymə texnikası ilə formalaşdırıldığını göstərir; gövdə boyunca uzanan üfüqi, çox incə konsentrik izlər metalın çəkic altında mərhələli şəkildə açıldığını sübut edir. Bu izlər funksional çatışmazlıq deyil, sənətkarlıq prosesinin təbii nəticəsi olaraq dekorativ qiymət qazanır.

XIX əsrə aid digər bir qalaylı mis şərbətxor isə dekorativ baxımdan əvvəlkilərdən fərqli olaraq daha zəngin ornamentik sistemə malikdir. Səthin qalayla örtülməsi metalın korroziyasını azaldır və həm parlaq, həm də soyuq tonlu fon yaradır. Bu fon üzərində tətbiq olunmuş nəbati naxışların incə oyma texnikası ilə icrası səthin ritmik bölgüsünü təmin edir. Naxışlar arasında budaq və yarpaqvari elementlərin yer alması Cənubi Azərbaycan ustalarının metal üzərində bitki motivlərini geniş tətbiq etməsi ilə səsləşir. Ornament zolaqvari şəkildə dairəvi ritm üzrə gövdəni dolaşır və kompozisiyanın yuxarı hissəsində daha sıx, aşağı hissəsində isə nisbətən seyrək verilir. Gövdə boyunca verilmiş həcmcə kiçik heyvan təsvirləri ustanın dekorativ repertuarının genişliyini göstərir və səthin oxunaqlılığını artırır. Qalaylayın yaratdığı açıq rəngli fonla oyma naxışların tünd konturu arasında yaranan kontrast kompozisiyanın əsas estetik təsirini formalaşdırır. Bu nümunədə forma sadəliyi ilə ornament zənginliyi arasında qurulan tarazlıq XIX əsr metal emalı sənətinin əsas xüsusiyyətlərini nümayiş etdirir.

Bütün bu nümunələr birlikdə götürüldükdə XIX əsrdə şərbətxorların həm funksional, həm də estetik baxımdan yüksək səviyyədə formalaşdırıldığını göstərir. Sadə səthli, yalnız materialın öz teksturası ilə dəyər qazanan nümunələrdən tutmuş, qalay üzərində kompleks oyma ornamentləri olan əşyalara qədər geniş spektr ustaların müxtəlif texniki imkanlara və dekorativ zövqlərə sahib olduqlarını sübut edir. Səthin təmizlənməsi, döymə texnikasında formanın mərhələli şəkildə genişləndirilməsi, ayaqlıq və çanaq arasında qurulan proporsional tarazlıq, ornamentlərin simmetrik və ritmik bölgüsü bu

şərbətxorların hər birini məişət və mərasim mədəniyyətində yüksək dərəcədə işlənmiş tətbiqi sənət nümunəsi kimi təqdim edir.

Tədqiqata cəlb olunan dini mərasim əşyalarının forma quruluşu, material seçimi və dekorativ işlənməsi müxtəlif funksional tələblərdən doğmuş, eyni zamanda sənətkarlıq ənənələrinin yüksək səviyyəsini əks etdirmişdir. İlk nümunə olan təbərzin ağac sap və metal başlıqdan ibarət olub XIX əsr istehsalı kimi nəzərdən keçirilir. Metal başlığın formaca yastı, iki tərəfi simmetrik şəkildə genişlənən quruluşu döyüş baltasını xatırlatsa da, üzərində fil təsvirinin verilməsi və ərəb əlifbası ilə yazının yerləşdirilməsi onun sırf utilitar deyil, həm də rəmzi xarakter daşıdığını göstərir. Fil təsviri səthin mərkəzi hissəsində kompozisiya baxımından ön plana çəkilmiş, konturlarının incə işlənməsi motivin aydın görünməsinə şərait yaratmışdır. Yazıların yerləşdirilməsi isə metal səthin dekorativ bölgüsünü tamamlayır. Bu nümunədə dekorasiya işləmələri döymə və oyma texnikası ilə həyata keçirilmiş, səthin oksidləşməsi nəticəsində yaranan tünd açıq tonlar ornamentin oxunaqlığını artırmışdır. Təbərzinin ümumi silueti yuxarı ağır, aşağı incə nisbət üzərində qurularaq həm estetik, həm də funksional tarazlıq təmin etmişdir.

Dini əşyalar içərisində yer alan bayraq ucluğu isə dini mərasim kontekstində istifadə olunmuş və ağ metal materialdan hazırlanmışdır. Aypara formasının seçilməsi onun funksional olduğu qədər rəmzi məzmun daşıdığını göstərir. Aypara konturunun kənarlarına vintin əlavə olunması konstruktiv möhkəmliyi artırır və onu bayraq dirəyinə bərkidilmək üçün daha əlverişli edir. Formanın incə və simmetrik şəkildə əyilmiş kənarları soyuq döymə texnikası ilə verilmiş ritmik əyriliklərlə müşayiət edir. Səthin hamar saxlanılması diqqəti forma xəttinin aydınlığına yönəldir. Bu əşyada dekorativ element minimuma endirilmiş və bədii təsir əsasən kontur plastikası üzərində qurulmuşdur. Ayparanın aşağı hissəsində vintin spiralvari çıxıntısı metallın konstruktiv məqsədlə işlənməsinin, forma ilə funksiyanın vəhdətinin tipik nümunəsidir.

Bu əşyalar birlikdə götürüldükdə XIX-XX əsrlərin metal emalı sənətində rəmzi atributların forma ilə dekor arasındakı əlaqəni necə həssas şəkildə daşıdığını göstərir. Təbərzində fiqurlu təsvir və yazı ilə zənginləşdirilmiş səthlə dekorativ yük ağırlaşdırıldığı halda, bayraq ucluğunda forma xəttinin sadəliyi əsas estetik vasitəyə çevrilmişdir. Bayraq başlarında isə sadə həcm quruluşu, minimal ornamentasiya və funksional detallarla estetik nizam arasında tarazlıq qorunmuşdur. Bu nümunələr metal sənətkarlığında həm struktur dəqiqliyi, həm

də dekorativ nəzakəti əks etdirən yüksək səviyyəli tətbiqi sənət məhsulları kimi dəyərləndirilə bilər.

Dövrün dini əşyalarından olan ələmlər forma, texnika və məna baxımından bir-biri ilə bağlı olsa da, hər biri öz dekorativ sistemi və epiqrafik xüsusiyyətləri ilə seçilir. Əl şəklində hazırlanmış bu metal əşyalar dini mərasimlərdə və ziyarət ənənəsində rəmzi atribut kimi istifadə olunmuş, buna görə də onların səthində yazılar və dekorativ elementlər xüsusi əhəmiyyət kəsb etmişdir. Mis və dəmir kimi metallardan hazırlanması həm davamlılığı təmin etmiş, həm də oyma və həkketmə texnikalarının tətbiqini mümkün etmişdir.

XVII əsrə aid mis ələmə məxsus forma 40 sm-lik ölçüsü ilə monumental təsir yaradır və barmaq hissələrinin nisbətən daha qısa, ovuc hissəsinin isə geniş həcmə malik olması onun köhnə tipoloji formaya yaxın olduğunu göstərir. Səthin üzərində Əhli-beyt adlarının həkk edilməsi dekorasiyanın əsas təyinedici elementi kimi çıxış edir. Bu yazılar barmaq və ovuc hissəsinə uyğun zonalara bölünmüşdür. Yazı xəttinin incə və sıx işlənməsi metal səthdə ritmik quruluş yaratmışdır. XVII əsr metal oyma sənətinə uyğun olaraq səthin kənarlarında yüngül kontur işarələri müşahidə edilir ki, bu da ustanın oyma prosesində forma xəttini əvvəlcədən qeyd etməsindən xəbər verir. Nümunə forma baxımından daha arxaik, yazı baxımından isə daha sıx dekorativ yüklüdür.

XVIII-XIX əsrlərə aid mis ələm forma baxımından geniş açıqlı beşbarmaq silueti ilə seçilir. Səthin tamamilə hamar saxlanılması ustanın diqqətini oyma yazıya yönəltdiyini göstərir. Qurani-Kərim ayələrinin metal üzərinə həkk olunması incə konturlarla icra edilmiş, yazıların ritmik şəkildə barmaq istiqamətinə uyğun yerləşdirilməsi kompozisiya bütövlüyünü təmin etmişdir. Arxa planda relyefsiz səthin saxlanılması yazının oxunaqlığını artırır. Qeyd edək ki, *"Quran ayələri bütün müsəlman dünyasında hər bir əsrdə təkcə dini əşyaların dekorativ elementləri kimi işlədilməmişdir; ayələr, həm də parçaların, paltarların, qabların, sinilərin, sandıqların, mebellərin, divarların, binaların, hətta adi qazanların bəzədilməsi üçün işlədilmişdir"* [İ., L.Faruqi, s.29 ]. Bu nümunədə dekorativ yük yazının özündə cəmlənmiş, forma isə rəmzi mahiyyətini qoruyan əsas konstruktiv xətt kimi xidmət etmişdir. Barmaqların uclarına doğru incə uzanma, ortada isə yüngül enmə formaya sakit ritm verir və metalın döymə texnikası ilə formalaşdırıldığını göstərir.

XIX əsrə aid mis ələm nümunəsi isə daha kiçik ölçülü forması ilə fərqlənir. Səthin üzərində "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" adlarının ərəb

əlifbası ilə yazılması epiqrafik kompozisiyanı əsas dekorativ elementə çevirir. Yazıların barmaqların uzununa xəttinə uyğun şəkildə yerləşdirilməsi simmetriya hissini artırır. Bu nümunədə yazıların konturları daha qalın işlənmiş, metal səth ilə yazı arasındakı kontrast gücləndirilmişdir. Əl formasının konturlarında kəskinlik olmaması, yumşaq oval keçidlərin işlənməsi səthin dekorativ zərifliyini artırır. Bu nümunə dini-simvolik məzmunun forma və epiqrafik dekorla birləşdirilməsi baxımından diqqətəlayiqdir.

Maralı ələm nümunələrindən biri də dəmirdən hazırlanmış kiçik ölçülü (5 sm) amulet tipli ələmdir. Bu kiçik ölçü forma quruluşunu daha kompakt və məqsədyönlü etmişdir. Dəmir materialın seçilməsi onu daşımaq üçün daha uyğun edir və amulet funksiyasını dəqiq müəyyənləşdirir. Səth üzərində verilmiş yazılar və oyma işarələr forma ilə proporsional şəkildə uyğunlaşdırılmış, yazılar mərkəzi hissədə daha sıx, barmaqlara doğru daha seyrək verilmişdir. Dəmirin oksidləşməsi nəticəsində yaranan tünd boz və qara tonlar yazının daha aydın görünməsinə şərait yaratmışdır. Səthin xırda ölçülü olması dekorativ elementlərin sıxlığını azaltsa da, ustanın yazıları simmetrik şəkildə yerləşdirməsi kompozisiya nizamını qoruyur.

Təhlil olunan bütün ələmlər birgə götürüldükdə forma və dekor arasında aydın tarazlıq müşahidə olunur. Əl forması dəyişməz rəmzi struktur kimi saxlanılmış, bədii yük isə əsasən epiqrafik yazılar üzərində qurulmuşdur. Metalın döymə və oyma texnikaları ilə işlənməsi, səthin bəzəksiz və ya minimal relyeflə saxlanması, yazıların barmaqların ritminə uyğunlaşdırılması bu əşyaların həm funksional, həm rəmzi, həm də dekorativ əhəmiyyətini göstərir. XVIII-XIX əsr nümunələrində yazıların daha nizamlı, XVII əsr nümunəsində isə daha sıx və arxaik xarakter daşıması zaman fərqini bədii cəhətdən də hiss etdirir. Kiçik ölçülü dəmir nümunə isə amulet tipologiyasının spesifik xüsusiyyətlərini (kompaktlıq, sadə forma və mərkəzləşdirilmiş yazı dekorunu) aydın şəkildə göstərir.

**Nəticə.** Təhlil olunan bədii nümunələr – gülabdanlar, şərbətxorlar, bayraq (tuğ) başları, təbərzin və ələmlər müxtəlif dövrlərdə hazırlanmış dini-mərasim və məişət əşyalarının sənətkarlıq xüsusiyyətlərini çoxqatlı şəkildə nümayiş etdirir. Bu əşyaların forma, material və dekor quruluşu göstərir ki, dini təyinatlı məmulatlarda funksional məqsəd heç vaxt bədii-estetik qayələrdən ayrılmamış, əksinə, bir-birini tamamlayan iki əsas mahiyyət kimi formalaşmışdır. Şüşə, mis, çini, tirmə, çit, məxmər, dəmir və digər materialların mürəkkəb işlənməsi

zamanın texniki imkanlarını əks etdirməklə yanaşı, dini mətnin, rəmzin və mərasimin mahiyyətini bədii dil vasitəsilə ifadə edir.

Dekorativ sistemin əsas yükünü nəbati motivlər, oyma texnikası, güləbətin tikmələr, zolaqvari ornamentlər, həmçinin ərəb əlifbası ilə yazılmış ayələr və adlar təşkil edir. Epiqrafik dekor burada sadəcə yazı funksiyası daşımır, həm forma strukturunu möhkəmləndirir, həm də əşyanın semantik çərçivəsini müəyyən edir. Bu artefaktlar göstərir ki, dini məzmunlu əşyaların bədii tərtibatında simmetriya, ritm, materialla dekorun uyğunluğu və konstruktiv sabitlik əsas prinsip olmuşdur. Nəticə olaraq, təqdim edilən bütün nümunələr İslam dünyasında dini əşya hazırlığının yalnız funksional deyil, həm də sənətkarlıq baxımından zəngin ənənələrə söykəndiyini təsdiqləyir.

## Ədəbiyyat siyahısı

1. Çələbi, T. (1998). Talisman. Bakı: [n.y.].
2. Faruqi İ., Faruqi L. (2022). İslam incəsənəti. Bakı: “İdrak”
3. İslam mədəniyyəti və Azərbaycan məişəti [İzomaterial] /T.Şiriyev; tərc. F.Bəşirova; elmi red. N.Əliyeva (ön söz). Bakı: “Avropa”, 2021.
4. Milli Azərbaycan Tarixi Muzeyinin “sehrli” kolleksiyası: Amulet, həmayil və dualar [İzomaterial]: [Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında] / A.Rüstəmbəyova; elmi red. N.Vəlixanlı. Bakı: “Aspoliqraf”, 2023.
5. Mustafayev, A. (2009). Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: “Bakı Universiteti” nəşriyyatı

**Ganjmaliyeva Konul Nurmahammad gizi**

**Artistic-Decorative Characteristics of Religious Ceremonial Items**

**Summary.** The article systematically analyzes the artistic-decorative characteristics of religious ceremonial items made in different periods – gulabdan, sherbetkhor, tugh basi, taberzin and alem samples. Each of the artistic samples was made of different materials - copper, glass, porcelain, tirma, fence, velvet and iron, and these materials were processed in accordance with their natural properties and served both decorative and functional purposes. The analyzes show that the form in religious objects always carries a symbolic meaning. For example, the elegant and rising body structure of gulabdans, the

presentation of alems in the form of hands are one of the methods of artistic expression of religious thought.

The main place in the decorative system is occupied by floral ornaments, medallion compositions, carved inscriptions, embroidery of gulabdan and complex geometric divisions. These ornaments have not only an artistic but also a semantic function: verses from the Quran, the names of the Ahl al-Bayt and other religious expressions determine the content of the object and turn it from a simple product into a carrier of religious tradition. In terms of method, a balance between form and decor has always been maintained in these examples. In some objects, the decor is rich, while in others, the form is the main means of expression. The monumental form and simple surfaces of the sharbatkhors, and the prominence of the constructive solution in the flagpoles are examples of this diversity.

In general, the objects studied show that the preparation of religious objects in the Islamic world was a multi-layered process shaped not only by everyday needs, but also by artisanal traditions. A clear relationship was established between form, material and decor, and the aesthetic integrity formed a unity with the religious content. These examples confirm how religious attributes were expressed at a high level through the language of art, and inform about important stages of historical craftsmanship.

**Key words:** religion, ceremony, object, gulabdan, sharbatkhor, tabarzin, alam, artistic-decorative feature

**Ганджмалиева Кёнуль Нурмухаммед кызы**

## Художественно-декоративные свойства религиозных культовых предметов

**Резюме.** В статье системно анализируются художественно-декоративные характеристики культовых предметов разных эпох – гулабданов, шербетхоров, туг баси, таберзинов и алемов. Каждый из образцов был изготовлен из различных материалов – меди, стекла, фарфора, тирмы, ограды, бархата и железа, которые обрабатывались в соответствии с их природными свойствами и выполняли как декоративные, так и функциональные функции. Анализ показывает, что форма в культовых предметах всегда несет символическое значение. Например, изящная, возвышающаяся конструкция корпуса гулабданов,

представление алемов в виде рук являются одним из приемов художественного выражения религиозной мысли.

Главное место в декоративной системе занимают растительный орнамент, медальонные композиции, резные надписи, вышивка гулабданов и сложные геометрические членения. Эти украшения выполняют не только художественную, но и семантическую функцию: аяты Корана, имена Ахль аль-Бейт и другие религиозные выражения определяют содержание предмета и превращают его из простого изделия в носителя религиозной традиции. В методическом отношении в этих образцах всегда соблюдался баланс между формой и декором. В некоторых изделиях декор богат, в других форма является основным средством выражения. Монументальность и простота поверхностей шарбатхоров, а также выразительность конструктивного решения флагштоков – примеры такого многообразия.

В целом, изученные предметы показывают, что изготовление религиозных предметов в исламском мире было многоуровневым процессом, сформированным не только повседневными потребностями, но и ремесленными традициями. Была установлена четкая связь между формой, материалом и декором, а эстетическая целостность формировала единство с религиозным содержанием. Эти примеры подтверждают, как религиозные атрибуты выражались на высоком уровне через язык искусства, и рассказывают о важных этапах исторического мастерства.

**Ключевые слова:** религия, обряд, предмет, гулабдан, шарбатхор, табарзин, алем, художественно-декоративный элемент

Məqalənin redaksiyaya daxilolma tarixi: 02.12.2025
Məqalənin çapa qəbul olunma tarixi: 03.12.2025